# 15 İyun – Milli Qurtuluş Günü

*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

14 iyun 2024-cü il №19 (9077) www.muallim.edu.az muallim@media.edu.az

## Bu il 102 mindən çox şagird XI sinfi bitirir

2023-2024-cü tədris ilində ümumi təhsil müəssisələrində təhsilalanların sayı 1706935 nəfər təşkil edib. 102120 nəfər XI sinfi, 150445 nəfər IX sinfi və 137862 şagird birinci sinfi bitirir. Məktəbəhazırlıq qruplarında 87569 uşaq təhsil alıb





## Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır

**Ümummilli Lider Heydər ƏLİYEV:** “Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm... Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur. Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır. Azərbaycan Respublikasının vətəndaşları sülh və əminamanlıq şəraitində yaşayıb öz dövlətini özü istədiyi kimi qurmalıdır”.

## Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək

**Prezident İlham ƏLİYEV:** “Mənim təşəbbüsümlə bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək... Zirvə görüşünün Şuşada keçirilməsi təbii ki, böyük rəmzi məna daşıyır... Türk Dövlətləri Təşkilatına üzv ölkələrin liderləri Şuşaya səfərlər etmişlər. Türkiyə Prezidenti, Özbəkistan Prezidenti, Qazaxıstan Prezidenti, Qırğızıstan Prezidenti Ağdama və Füzuliyə səfər etmişdir. Yəni bu, işğal edilmiş torpaqların bərpası üçün, əlbəttə, böyük məna daşıyır. Biz bir daha qardaş dəstəyini hiss edirik, bütün Azərbaycan xalqı bunu hiss edir. Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda qardaş ölkələrin təşəbbüsü və maliyyə dəstəyi ilə artıq bir məktəb və bir incəsənət mərkəzi fəaliyyətə başlamışdır. Bunlar Özbəkistan və Qazaxıstan tərəfindən inşa edilib. Bir məktəbin təməlini isə bu yaxınlarda Qırğızıstan Prezidenti ilə bərabər Ağdam rayonunda qoyduq. Cəbrayıl rayonundakı bir məntəqədə isə Macarıstanın maliyyə dəstəyi ilə bir məktəb inşa ediləcək”.

## Son 20 ildə 1 milyondan çox şagirdin təhsil şəraiti yaxşılaşdırılıb

Son 20 ildə 4 minə yaxın məktəb əsaslı təmir edilib və yeniləri inşa olunub. Bunun da nəticəsində 1 milyondan çox şagirdin təhsil şəraiti yaxşılaşdırılıb.

2016-cı ildən nazirlik tərəfindən “Məktəblinin dostu” layihəsi həyata keçirilir. Bu layihə 30-dan çox məktəblə başlayıb və hazırda 200-dən artıq məktəbdə tətbiq olunur.

Bax səh. 3

## Müəllimlər niyə sertifikatlaşdırılmalıdırlar?

Sertifikatlaşdırma müəllimlərin minimum səriştə standartlarına cavab verməsini təmin edir ki, bu da ölkə üzrə tədrisin yüksək səviyyədə olmasına şərait yaradır. Burada paralel olaraq müəllimlərin pedaqoji bacarıqları da üzə çıxır. Müəllimlərimiz lazım gəldikdə effektiv tədris metodları və sinfin idarəedilməsi strategiyaları üzrə təlim alırlar və bu, şagirdlərin öyrənmə nəticələrinin artmasına gətirib çıxarır.

Bax səh. 6

# Bu gün onbirincilər üçün son zəng çalınacaq




## “QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ”

### Məktəblilərimiz tarixi Azərbaycan diyarı ilə bağlı biliklərini nümayiş etdirirlər

Bax səh. 4

## “THE Impact 2024” reytinqinə daxil olan Azərbaycan universitetləri

125 ölkədən 2152 universitetin dəyərləndirildiyi reytinqdə Azərbaycan universitetləri arasında Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Tibb Universiteti, Xəzər Universiteti və Qərbi Kaspi Universiteti əhəmiyyətli nəticələr əldə edib.

Bax səh. 2

## Emin Əmrullayev Albaniya Respublikasının təhsil və idman naziri ilə görüşüb



İyunun 10-da elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə səfərdə olan Albaniya Respublikasının təhsil və idman naziri Ogerta Manastirliu ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivlərinə dair müzakirələr aparılıb.

**Elm və təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub**

## “Məktəblilərin respublika çempionatı”nın cüdo idman növü üzrə final yarışları keçirilib

### Qaliblər mükafatlandırılıb




**İyunun 10-da Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə qərarı ilə təşkil olunan “Məktəblilərin respublika çempionatı”nın cüdo idman növü üzrə açılış mərasimi keçirilib.**

Açılış mərasimində elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Gənclər və İdman Nazirliyi, idman federasiyalarının rəsmi şəxsləri, həmçinin tanınmış idmançılar iştirak ediblər.

Tədbirdə əvvəlcə çempionat haqqında məlumat verilib, rəqs və mahnı nömrələri nümayiş olunub.

Sonra tədbir final qarşılaşmaları ilə davam etdirilib. Sonda isə qaliblərə rəsmi qonaqlar tərəfindən diplom və medal təqdim olunub.

Cüdo üzrə yarışlarda ölkənin müxtəlif rayon və şəhərlərindən 16 çəki dərəcəsində 2012-2014-cü il təvəllüdlü məktəbli idmançılar iştirak ediblər.

Qeyd edək ki, “Məktəblilərin respublika çempionatı” dörd idman növü üzrə Taekvondo, Güləş, Cüdo və Ağırlıqqaldırma federasiyaları tərəfindən idarə olunub. Çempionata cüdo idman növü üzrə yarışlarla yekun vurulub.

## “THE Impact 2024” reytinqinə daxil olan Azərbaycan universitetlərinin sayı 2 dəfədən çox artıb

**Dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan “Times Higher Education” (THE) tərəfindən Banqkok şəhərində keçirilən Qlobal Davamlı İnkişaf Konqresi çərçivəsində “THE Impact 2024” reytinqinin nəticələri elan edilib. Sözügedən reytinqə daxil olan Azərbaycan universitetlərinin sayı ötən ilə nisbətən 2 dəfədən çox artaraq 18-ə yüksəlib.**

125 ölkədən 2152 universitetin dəyərləndirildiyi reytinqdə Azərbaycan universitetləri arasında Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Tibb Universiteti, Xəzər Universiteti və Qərbi Kaspi Universiteti əhəmiyyətli nəticələr əldə edib.

Universitetlərin fəaliyyətinin Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq qiymətləndirildiyi “THE Impact 2024” reytinqinin nəticələrinə əsasən, “Yoxsulluğa qarşı mübarizə” üzrə Bakı Dövlət Universiteti (201-300), “Keyfiyyətli təhsil” üzrə ADA Universiteti (201-300), “Gender bərabərliyi” üzrə Qərbi Kaspi Universiteti (201-300), “Sərfəli və təmiz enerji” üzrə Azərbaycan Dövlət İqtisad Universiteti (101-200) və Xəzər Universiteti (101-200) Azərbaycanda birinci sıradadır.

Qeyd edək ki, hazırda konqres çərçivəsində Elm və Təhsil Nazirliyinin dəstəyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə 10 qabaqcıl yerli universitet Azərbaycan pavilyonunda təmsil olunur.

## İctimai Şura ictimaiyyət və nazirlik arasında dialoq rolunu oynayır

### Elm və təhsil naziri İctimai Şuranın üzvləri ilə görüşüb





**İyunun 13-də elm və təhsil naziri Emin Əmrullayev nazirlik yanında İctimai Şuranın yeni tərkibi ilə görüşüb.**

Görüşdə elm və təhsil sahəsində həyata keçirilən layihələr, görülən işlərin əhəmiyyətindən danışan Emin Əmrullayev vurğulayıb ki, 2026-cı ilədək qarşıya qoyulan əsas məqsəd “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”ndan irəli gələn tədbirləri həyata keçirməkdir.

Ölkəmizdə təhsil sahəsində aparılan islahatlar, müasir infrastrukturun yaradılması, o cümlədən işğaldan azad edilmiş ərazilərdə təhsil müəssisələrinin bərpa edilməsi, əsaslı təmir işlərinin həyata keçirilməsi, yeni elm ocaqlarının yaradılması istiqamətində görülən işlərə xüsusi diqqət çəkən nazir elm və ali təhsil sahəsində vacib addımlar atılacağını bildirib.

Nazir elm və təhsil siyasətinin həyata keçirilməsində İctimai Şuranın ictimaiyyət və nazirlik arasında dialoq rolunu oynadığını, şuranın aktiv fəaliyyətinə xüsusi ehtiyac olduğunu vurğulayıb.

İctimai Şuranın sədri Hikmət Əlizadə çıxış edərək təhsil xidmətlərinin rəqəmsallaşdırılması, sertifikatlaşdırma və XXI əsrin təhsil modeli ilə bağlı görülən işlərin əhəmiyyətli olduğunu vurğulayıb. Sədr şuranın ictimaiyyətin rəylərini diqqətə alaraq səmərəli təkliflər hazırlayacağını da əlavə edib.

Daha sonra şuranın digər üzvləri təhsil sahəsində mövcud problemlər, ictimai rəylər və digər məsələlərlə bağlı təkliflərini səsləndiriblər.

Görüşdə gələcək nəslin savadlı formalaşdırılmasında müəllimin rolu, təhsil prosesində sosial-emosional öyrənmə modelinin tətbiqi, özəl və dövlət ümumi təhsil müəssisələri arasında əməkdaşlığın qurulması və bir sıra digər konseptual məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

Sonra nazir İctimai Şuranın yeni tərkibinə təşəkkür edib və onlara gələcək 2 illik fəaliyyətlərində uğurlar arzulayıb.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

## Azərbaycan – Birləşmiş Ərəb Əmirlikləri Nazirlərinin Təcrübə Mübadiləsi Forumu

### Elm və təhsil nazirinin müavini forumda iştirak edib




**İyunun 11-də Bakıda Azərbaycan—Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Nazirlərinin Təcrübə Mübadiləsi Forumu işinə başlayıb.**

Tədbir Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və BƏƏ-nin Kabinet İşləri Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilir. “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hökumət təcrübələrinin mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu”nun icrası çərçivəsində keçirilən forumda əmirliklərin müxtəlif sahələr üzrə 30-a yaxın rəsmisi, o cümlədən ölkəmizin yüksək vəzifəli şəxsləri iştirak edirlər.

Forumun keçirilməsində məqsəd dövlət xidmətlərinin göstərilməsi sahəsində innovasiya və texnologiyaları təşviq etmək, iqtisadi dirçəlişi sürətləndirmək üçün müvafiq çərçivə və siyasətləri müəyyənləşdirməkdir. Bununla yanaşı, təhsil və sosial rifah sahəsində əldə olunmuş yeni nailiyyətlərin, habelə ölkəmizin COP29 tədbirinə ev sahibliyi ilə əlaqədar ətraf mühit və yaşıl enerji kimi mövzularla bağlı tendensiyaların müzakirəsi əsas hədəflər sırasındadır.



Forumda əvvəlcə Azərbaycan BƏƏ əməkdaşlığına həsr olunmuş videoçarx nümayiş etdirilib.

Ardınca Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, BƏƏ-nin hökumətin inkişafı və gələcək üzrə dövlət naziri Ohud Əl Rumi açılış nitqi ilə çıxış ediblər.

Sonra Azərbaycan və BƏƏ hökumətlərinin müxtəlif sahələr üzrə rəsmilərinin çıxış və təqdimatları olub. Bu çərçivədə hər iki ölkənin müvafiq sahələr üzrə əldə etdiyi qabaqcıl təcrübələr təqdim olunub.

İyunun 12-də Bakıda keçirilən Azərbaycan—BƏƏ Nazirlərinin Təcrübə Mübadiləsi Forumu çərçivəsində Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) aidiyyəti dövlət qurumlarının iştirakı ilə sessiyalar təşkil olunub.

Forumun ikinci günündə keçirilən “Təhsil” sessiyasında elm və təhsil nazirinin müavini Həsən Həsənli və “Emirates Schools Establishment”in baş direktoru Mohammed Əl Qasimin rəhbərlik etdiyi nümayəndə heyətlərinin iştirakı ilə müzakirələr aparılıb.

Müzakirələr zamanı iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və bundan sonrakı dövr üçün nəzərdə tutulan fəaliyyətlərə dair fikir mübadiləsi aparılıb.

# Son 20 ildə 1 milyondan çox şagirdin təhsil şəraiti yaxşılaşdırılıb

## Nazir müavini uşaq hüquqlarının qorunması ilə bağlı görüşdə iştirak edib

**İyunun 11-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə görüş keçirilib.**

Görüşdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, səhiyyə nazirinin müavini İlqar Qasımov, Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov, Daxili İşlər Nazirliyi və digər müvafiq dövlət qurumları, vətəndaş cəmiyyəti institutlarının məsul nümayəndələri iştirak ediblər.

Görüş Azərbaycan Respublikası Hökumətinin BMT-nin "Uşaq hüquqları haqqında Konvensiyası"na dair beşinci və altıncı birgə dövri məruzəsi üzrə BMT-nin Uşaq Hüquqları Komitəsi (CRC) tərəfindən qəbul olunmuş Yekun Müşahidələrin uşaq müdafiəsi, təhsil və sağlamlıq sahələrində təhlili, eləcə də müzakirəsi məqsədilə keçirilib.

Görüşdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, komitə üzərinə düşən vəzifələri yerinə yetirərək monitorinq və əlaqələndirmə işini davam etdirir, eləcə də bütün tövsiyələr üzrə müxtəlif istiqamətlərdə fəaliyyətlər həyata keçirir. Ötən dövr ərzində hüquqi-normativ aktlarda dəyişikliklər edilməsi ilə bağlı da bir sıra layihələrin hazırlandığını diqqətə çatdıran Bahar Muradova UNICEF-ə uzunmüddətli uğurlu əməkdaşlığa görə təşəkkürünü bildirib.

UNICEF-in Azərbaycandakı nümayəndəsi Saca Faroq Abdullah uşaq hüquqlarının müdafiəsi istiqamətində Azərbaycan hökumətinin irəliləyişlərə nail olduğunu vurğulayıb. Uşaqlara qarşı və gender əsaslı zorakılıqla mübarizə istiqamətində görülən işlərdən danışan Saca Faroq Abdullah BMT-nin aidiyyəti dövlət qurumları ilə effektiv və kompleks şəkildə təşkil olunan əməkdaşlığın önəmini diqqətə çatdırıb.

Sonra UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin "Uşaq müdafiəsi" proqramının rəhbəri Vüqar Salmanov BMT-nin Uşaq Hüquqları Komitəsinin uşaq müdafiəsi sahəsində tövsiyələri ilə bağlı təqdimatla çıxış edib.

Daha sonra komitənin Uşaq məsələləri şöbəsinin müdir müavini Günel Nağdəliyeva, Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova həyata keçirilən tədbirlər barədə məlumatları diqqətə çatdırıblar.

Görüş ərzində qanunvericilik, strategiya, əlaqələndirmə, doğumun qeydiyyatı və vətəndaşlıq, uşaqlara qarşı zorakılığın qarşısının alınması, ailə mühitində yaşamaq hüququ, əlilliyi olan uşaqlar, uşaq əməyi və küçə mühitində yaşayan uşaqlar, uşaq ədliyyəsi, sağlamlıq və səhiyyə xidmətləri, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi, təhsil və digər məsələlər müzakirə edilib.



**Firudin Qurbanov:**

- **Uşaqların təhsili üçün ölkəmizdə müvafiq şərait yaradılıb. Ölkəmizdə 1 milyon 500 min məktəbli var**
- **Son 20 ildə 4 minə yaxın məktəb əsaslı təmir edilib və yeniləri inşa olunub. Bunun da nəticəsində 1 milyondan çox şagirdin təhsil şəraiti yaxşılaşdırılıb**
- **İnsanlarımız Qarabağa qayıtdıqları kimi, təhsilimiz də Qarabağa qayıdır. İşğaldan azad edilmiş ərazilərimizdə müasir standartlar əsasında məktəblər inşa edilib və uşaqlarımız həmin məktəblərdə təhsillərini davam etdirirlər**
- **2016-cı ildən nazirlik tərəfindən "Məktəblinin dostu" layihəsi həyata keçirilir. Bu layihə 30-dan çox məktəblə başlayıb və hazırda 200-dən artıq məktəbdə tətbiq olunur. Layihə məktəb və valideynlər arasında əlaqələrin dərinləşdirilməsinə imkan verir**



# Süni intellektin gələcəyi: insan həyatının və sənayenin transformasiyası

## "Danışır təcrübə" layihəsinin növbəti qonağı Fariz Cəfərov olub

**Elm və Təhsil Nazirliyi, tabe qurumlarının əməkdaşlarının davamlı inkişafının təmin edilməsi, müasir çağırışlara hazır olan kadrların yetişdirilməsi məqsədilə həyata keçirilən "Danışır təcrübə" layihəsi davam edir.**

Layihənin budəfəki qonağı Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov olub.

Fariz Cəfərov rəqəmsal sahədə məlumatlılığın artırılması məqsədilə "Süni intellektin gələcəyi: insan həyatının və sənayenin transformasiyası" mövzusunda təqdimatla çıxış edib. Süni intellektin yaratdığı imkanlardan danışan Fariz Cəfərov Azərbaycanda bununla bağlı həyata keçirilən layihələr barədə məlumat verib. 4SİM-in icraçı direktoru süni intellektin bu gün dünyada kənd təsərrüfatı, infrastruktur, inşaat, istehsal və digər sahələrdə geniş tətbiq olunduğunu diqqətə çatdırıb.

Süni intellektlə işləyən verilənlər bazasının idarəetmə sistemləri ilə bağlı təcrübələrini də bölüşən Fariz Cəfərov sonda iştirakçıların suallarını cavablandırıb.

Qeyd edək ki, "Danışır təcrübə" layihəsi çərçivəsində müntəzəm şəkildə görüşlərin təşkili nəzərdə tutulur.





# UNEC tələbələrinin məqalələri Scopus bazasında dərc olunub

**UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbinin (ISE) tələbələrinin məqalələri Scopus bazasına daxil olan Q1 kateqoriyalı jurnallarda dərc olunub.**




Bu barədə universitetdən "Azərbaycan müəllimi"nə xəbər verilib.

Bildirilib ki, ISE tələbələri Aysu Abbasova, Röyalə Alışzadə, Alsu Cəfərovanın "Expatriation and permanent emigration intention among youth in Azerbaijan" (Azərbaycanda gənclər arasında ekspatriasiya və daimi emiqrasiya meyilliliyi) adlı məqaləsi "Journal of International Studies" jurnalında dərc olunub. Tələbələr Azərbaycan gəncləri arasında müvəqqəti və daimi emiqrasiya meyilliliyini formalaşdıran mümkün faktorları təhlil ediblər.

ISE-nin digər tələbələri Aysu Əhmədova, Tağı Quliyevin "The Relationship between Bitcoin and Nasdaq, U.S. Dollar Index and Commodities" (Bitcoin ilə Nasdaq, ABŞ dolları indeksi və əmtəələr arasındakı əlaqə) mövzusunda elmi məqaləsi isə "International Journal of Energy Economics and Policy" jurnalında dərc olunub. Tələbələr 2017-2023-cü illəri əhatə edən dövrdə həftəlik qiymətlərdən istifadə edərək, Bitcoin ilə Nasdaq, ABŞ dolları indeksi və əmtəələr arasındakı uzunmüddətli qarşılıqlı əlaqələri araşdırıblar.

Hər ik məqalə beynəlxalq iqtisadiyyat və biznes kafedrasının dosenti Xətai Alıyevin elmi rəhbərliyi ilə yazılıb.

Xatırladaq ki, Elmi Şuranın qərarına əsasən, elmi məqalələri beynəlxalq nüfuzlu jurnallarda dərc olunan UNEC tələbələri 4500 manatadək qonorar qazanmaq şansı əldə edirlər.

# BİZ QƏRBİ AZƏRBAYCAN QAYIDACAĞIQ

**Prezident İlham ƏLİYEV:** "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır".

## "QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"

## Məktəblilərimiz tarixi Azərbaycan diyarı ilə bağlı biliklərini nümayiş etdirirlər

**Bu dəfə Azərbaycan məktəbliləri "Qərbi Azərbaycana qayıdış" olimpiadasında öz biliklərini nümayiş etdirərək final üçün gün sayırlar. Sevindiricidir ki, olimpiadaya olan maraq ilkin mərhələdə belə artıq özünü göstərmişdi. Belə ki, 10 minə yaxın IX və X sinif şagirdinin qatıldığı olimpiada güclü rəqabətin aparıldığı əsl bilik meydanı idi. Və bu bilik sınağının ötən ay keçirilən ikinci mərhələsində iştirak etmək 1001 yeniyetməyə nəsib oldu. Onlar arasından da ən yüksək nəticə göstərən 36 şagird isə finalda növbəti dəfə öz bilik və intellektual potensialını nümayiş etdirəcək.**

**Qeyd edək ki, olimpiadanın təşkilində əsas məqsəd şagirdlər arasında Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə işlərini aparmaq və biliklərin dərindən öyrənilməsini təmin etməkdir.**

**"Qərbi Azərbaycana qayıdış" olimpiadası Elm və Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Təhsil İnstitutu, Qərbi Azərbaycan İcması və Naxçıvan Dövlət Universitetinin birgə tərəfdaşlığı ilə həyata keçirilir.**

**Olimpiada ölkə ziyalıları tərəfindən böyük maraq və rəğbətlə qarşılanmaqdadır. Respublikamızın tanınmış alimlərinin, millət vəkillərinin, ictimaiyyət nümayəndələrinin dəstək verdiyi bu möhtəşəm olimpiadanın final mərhələsinin keçirilməsinə sayılı günlər qalıb. "Azərbaycan müəllimi" qəzeti olaraq cəmiyyət arasında böyük nüfuz sahibi olan ziyalılarımızdan təşkil olunan bilik yarışı ilə bağlı təəssüratlarını öyrəndik.**

### "Şagirdlərimizdə Qərbi Azərbaycana olan sevgisini görürəm"



**Mahirə HÜSEYNOVA, Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor**

- İlk olaraq qeyd edim ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanışlıqdan sonra Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı söylədiyi fikirləri, verdiyi tapşırıq və tövsiyələri əzəli torpaqlarımızdan zorla çıxarılmış azərbaycanlıların öz doğma vətəninə qayıtması hüququnun təmin edilməsi yolunda Azərbaycan xalqının ümummilli mübarizəsində dönüş nöqtəsi oldu. Ölkə başçısının insan hüquqları məsələsi və sülhsevər missiya hesab etdiyi Qərbi Azərbaycana qayıdışı xalqımızın əsas hədəflərindən biri kimi göstərməsi Qərbi azərbaycanlıları deyil, bütövlükdə Azərbaycan ictimaiyyətini bu amal, istək uğrunda səfərbər etdi. Cənab Prezident həmin görüşdə çox ətraflı, hərtərəfli olaraq Qərbi Azərbaycanın coğrafiyası, tarixi, folkloru, toponimləri ilə bağlı hər məsələyə ayrı-ayrılıqda toxunaraq bunlarla bağlı dəyərli fikirlər söylədi. "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir" - fikirlərini söyləyən Prezident ziyalılarla görüşündə digər vacib məqamlara da toxundu. Onu da qeyd etdi ki, indi əsas vəzifə əsl həqiqətləri dünya ictimaiyyətinə də çatdırmaqdır: "Artıq bu istiqamətdə işlər başlamışdır. Əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Cənab Prezidentin dediyi hər bir söz önəmlidir və hər söz insanlarda ümid yaradır, gələcəyə inamını artırır. Biz inanırıq ki, öz əzəli torpaqlarımıza qayıdacağıq. Qərbi Azərbaycanla bağlı əsl həqiqətlər bir ziyalı, bir elm adamı olaraq hesab edirəm ki, kitablarımızda, əsərlərimizdə də öz əksini tapmalıdır. Ermənilər tərəfindən adları təhrif edilmiş şəhər və kəndlərimizin əsl sahiblərinin öz yurd-yuvalarına qayıdacağı gün də uzaqda deyil. Və bütün dünyaya sübut edəcəyik ki, Qərbi Azərbaycan bizim dədə-baba torpaqlarımızdır.

Bizim böyüməkdə olan gənc nəsil də bu həqiqətləri bilməli, bununla bağlı ətraflı məlumata malik olmalıdır. Bu baxımdan mən orta ümumtəhsil məktəblərinin IX və X sinif şagirdləri arasında təşkil olunan "Qərbi Azərbaycana qayıdış" olimpiadasını yüksək qiymətləndirirəm. Sevindirici haldır ki, şagirdlərimiz bu olimpiadaya böyük həvəslə qatılıblar. Onların Qərbi Azərbaycana olan sevgisini görürəm. Bu, bizim Azərbaycan gəncliyinin necə vətənpərvər, torpağına bağlı olduğunu göstərir. Mən əminəm ki, bu şagirdlər arasından gələcəkdə gözəl tarixçilər, alimlər yetişəcək. Finala vəsiqə qazanan hər bir şagirdə uğurlar arzulayıram.

### "Olimpiada ənənəvi olaraq hər il keçirilməlidir"



**Hikmət ƏLİZADƏ, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, pedaqogika üzrə elmlər doktoru, Bakı Dövlət Universitetinin professoru**

- "Qərbi Azərbaycana qayıdış" olimpiadası xalqımızın milli-mənəvi və hərbi-vətənpərvərlik dəyərləri müstəvisində həyata keçirilən olduqca aktual tədbirlərdən biridir. Artıq uzun müddətdir Azərbaycan xalqının əzəli torpaqlarında Ermənistan adında dövlət qurulub. Lakin ermənilər onlar üçün yaradılmış bu şəraitə görə Azərbaycan xalqına minnətdar olmaq əvəzinə Qərbi Azərbaycanın tarixini saxtalaşdırmaqla məşğul olaraq tarixi yerlərin adlarını dəyişdiriblər.

Həmin ərazilərdə azərbaycanlıların izlərini silmək və qondarma bir tarix yaradaraq Böyük Ermənistan xəyalı ilə yaşayıblar. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən 44 günlük Vətən müharibəsi nəticəsində onlar xalqımızın qüdrətini gördülər. Müharibədə əldə etdiyimiz qələbə görüləcək işin birinci mərhələsidir. Bu, davamlı məzmun daşıyacaq. Məsələnin belə qoyuluşu gəncləri Qərbi Azərbaycan həqiqətləri ilə tanış etmək məsələsini aktuallaşdırır. Bu kontekstdə "Qərbi Azərbaycana qayıdış" olimpiadasının keçirilməsi nəhayətsiz dərəcədə böyük əhəmiyyət kəsb edir. Olimpiadanın Elm və Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Təhsil İnstitutu, Qərbi Azərbaycan İcması və Naxçıvan Dövlət Universitetinin tərəfdaşlığı ilə həyata keçirilməsi isə olduqca təqdirəlayiqdir.

Düşünürəm ki, belə bir aktual mövzuda olimpiadanın keçirilməsi şagirdlərin Qərbi Azərbaycanla bağlı daha geniş məlumatlar əldə etmələrinə, vaxtilə bizlərə məxsus olan əzəli torpaqlarımız haqqında əsl həqiqətləri öyrənmələrinə hərtərəfli imkan yaradır.

Xatırlayıram ki, elm və təhsil naziri Emin Əmrullayev 2023-cü ildə keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresində belə bir müsabiqənin keçiriləcəyi barədə söz vermişdi. Artıq ikinci festival çərçivəsində olimpiada qaliblərinin mükafatlandırılmasının şahidi olacağıq. Hesab edirəm ki, olimpiada ənənəvi olaraq hər il keçirilməlidir. Şagirdlərimizin daha yüksək səviyyədə nəticələr göstərməsi üçün orta təhsil müəssisələrimiz üçün Qərbi Azərbaycanın tarixini, mədəniyyətini, coğrafiyasını, ədəbiyyatını, toponimlərini, folklorunu, o cümlədən ictimai xadimləri və tarixi şəxsiyyətləri haqqında məlumatları özündə əks etdirən inteqrativ dərs vəsaitinin hazırlanması və məktəblərdə fakültətiv məşğələ formasında tədris edilməsi məqsədəuyğun olardı. Bu, bizim tariximiz, bizim taleyimiz, bizim torpaqlarımızdır. Bu torpaqlar Azərbaycanımızın ayrılmaz hissəsidir.

**Samirə KƏRİMOVA**




# Qarabağ Universiteti SABAH qruplarının tələbə qəbulu üçün infosessiya

**Qarabağ Universiteti SABAH qruplarının 2024-2025-ci tədris ili üzrə bakalavriatura səviyyəsində tələbə qəbulu üçün Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı Slavyan Universiteti (BSU) və Azərbaycan Dillər Universitetində (ADU) infosessiya keçirib.**





Ali təhsil müəssisələrinin rəhbərliyinin iştirakı ilə keçirilən infosessiyada SABAH qrupları İcra Komitəsinin rəhbəri Elza Səmədova tələbə qəbulu qaydaları, seçim mərhələləri haqqında məlumat verib.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov Qarabağ Universitetinin SABAH qruplarında yaradılacaq imkanlar barədə məlumatı tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə eləcə də UNEC-in prorektoru Gəray Musayev, BSU-nun rektoru Anar Nağıyev və ADU-nun prorektoru Kifayət Hacıyeva çıxış ediblər.

# Məktəb-liseydə təbliğat görüşü

## Şagird və abituriyentlər maarifləndirilib

**Xankəndi şəhərində yaradılmış Qarabağ Universitetinin təbliğat görüşü keçirilib.**

“Azərbaycan müəllimi” xəbər verir ki, paytaxtdakı 20 nömrəli məktəb-liseydə keçirilən təbliğat görüşündə Qarabağ Universitetinin pedaqoji fakültəsinin dekanı Kəklik Gözəlova, sosial elmlər fakültəsinin dekanı Elmar Mustafayev, incəsənət fakültəsinin dekanı Türkər Qasımzadə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müvafiq struktur bölmə əməkdaşları, məktəb-liseyin müəllim və şagirdləri, həmçinin ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış abituriyentlər iştirak ediblər.



Görüşdə çıxış edənlər işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində doğma yurd yerlərimizin yenidən qurulması, dayanıqlı inkişafı və həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsindən danışıblar. Bildirilib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması işğaldan azad olunmuş ərazilərimizin yenidən bərpası istiqamətində aparılan uğurlu siyasətin çox önəmli addımlarından biridir. Həmçinin vurğulanıb ki, işğaldan azad edilən ərazilərdə yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən Qarabağ Universitetinin yaradılması Azərbaycan təhsilinin və elminin inkişafında müsbət nəticələrə səbəb olacaq.

Görüşdə məktəb-liseyin şagirdləri və ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərən abituriyentlərlə Qarabağ Universitetinə tələbə qəbulu ilə bağlı maarifləndirici söhbət aparılıb, universitetin üstünlükləri, ixtisasları, tədris prosesi, müəllim heyəti, təqaüd imkanları, yataqxanası və s. barədə ətraflı məlumat verilib.

# Qarabağ Universitetində müəllim vakansiyası

**Qarabağ Universitetində Azərbaycan dili, tarix, riyaziyyat, data analitikası, iqtisadiyyat, təhsil, fizika, hüquqşünaslıq, psixologiya və sosiologiya istiqamətləri üzrə müəllim vakansiyası**

**İşəgötürən:** “Qarabağ Universiteti” publik hüquqi şəxs

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri nəzərə alınaraq regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Qarabağ Universiteti yaradılıb.

Universitet Xankəndi şəhərində fəaliyyət göstərəcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli 73 nömrəli Qərarı ilə təsdiq olunmuş “Qarabağ Universitetinin Nizamnaməsi”nə əsasən, ali təhsilin bütün səviyyələri üzrə genişprofilli mütəxəssislərin və yüksəkixtisaslı elmi kadrların hazırlanması, eləcə də orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi və elmin müxtəlif sahələri ilə bağlı tədqiqatların aparılması universitetin fəaliyyət istiqamətlərinə aid edilib.

Universitet fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, eləcə də təhsilalanların yüksəksəviyyəli bilik və bacarıqlarla təmin olunması məqsədilə yüksəkixtisaslı peşəkar kadrlar üçün vakansiya elan edir.

**Vəzifə:** müəllim

**İşin təsviri:**
- fənn sillabuslarının hazırlanması;
- rəqəmsal bacarıqların tətbiqi;
- elmi tədqiqatların aparılması və nəticələrinin elmi jurnallarda dərc edilməsi;
- bakalavriat səviyyəsində dərs yükünə uyğun fənlərin tədrisi;
- tədris prosesi ilə bağlı tədris-metodiki vəsaitlərin hazırlanması;
- tədris prosesindən əlavə, ictimai və təhsil məsələləri ilə bağlı tədbirlərin təşkilində aktiv iştirak;
- müvafiq istiqamət üzrə kafedranın fəaliyyətinə dair təkliflərin hazırlanması;
- tələbələrin elmi-tədqiqat işlərinə rəhbərlik edilməsi.

**Tələblər:**
- fəlsəfə doktoru elmi dərəcəsinin olması;
- ali təhsil müəssisələrində müvafiq istiqamət üzrə minimum 3 il elmi-pedaqoji iş təcrübəsi;
- minimum B2 səviyyəsində ingilis dili bilikləri (digər xarici dil biliklərinin olması arzuolunandır);
- liderlik və idarəetmə bacarığı;
- tədqiqat bacarığı;
- tədris prosesində tələbə mərkəzli metod və texnologiyalardan istifadə bacarığı;
- təlim prosesində süni intellektin imkanlarından istifadə bacarığı;
- tələbəyönümlü və səriştəəsaslı tədris yanaşmalarından istifadə bacarığı;
- tələbələrin qiymətləndirilməsində müasir üsul və fərqli yanaşmalardan istifadə bacarığı;
- yüksək kommunikasiya bacarığı;
- Azərbaycan Respublikasının elm və təhsilə aid qanunvericilik aktları barədə məlumatlılığı;
- ali məktəb pedaqogikası və psixologiyasına, tələbələrlə davranış qaydaları və psixoloji işin təşkilinə dair biliklər.

**Tələb olunan sənədlər:**
1. tərcümeyi-hal;
2. ali təhsili təsdiq edən sənədlərin surəti;
3. dərc olunmuş elmi məqalələrin siyahısı (əgər varsa);
4. müşayiətedici məktub (motivasiya, proqramlarla bağlı baxış – maksimum 500 söz).

***Qeyd 1:*** *universitetdə daimi əsaslarla işləyən əməkdaşlar Xankəndi şəhərində tədris ilinin əvvəlindən başlayaraq işlədikləri müddətdə mənzillə təmin olunacaqlar.*

***Qeyd 2:*** *məktubun mövzu hissəsində müraciət olunan vakansiyanın adının qeyd edilməsi vacibdir. Bildiririk ki, yalnız müvafiq vakansiyanın tələblərinə uyğun namizədlərlə əlaqə saxlanılacaq.*

**Rəqabətədavamlı əməkhaqqı təklif olunur.**

**Müraciət üçün son tarix: 25 iyun 2024-cü il**

**Elektron poçt ünvanı: karabakh@edu.gov.az**

# SERTİFİKATLAŞDIRMA – DAVAMLI İNKİŞAF

## Təhsilverənlərin təkrar sertifikatlaşdırılması üzrə test imtahanları keçirilib

**İyunun 8-də təhsilverənlərin təkrar sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsi təşkil olunub. İmtahanda 7296 müəllim iştirak edib, 95% davamiyyət qeydə alınıb.**

Test imtahanları 16 şəhər üzrə 29 imtahan mərkəzini əhatə edib.

Test imtahanının nəticələri günün sonunadək müəllimlərin şəxsi kabinetlərinə göndərilib.

Təkrar sertifikatlaşdırmanın test imtahanı mərhələsinin ilkin nəticələrinə əsasən, bu il ölkə üzrə 3424 ibtidai sinif, 485 Azərbaycan dili və ədəbiyyat müəllimi təkrar sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsinin müvafiq keçid balını toplayıb.

Məlumat üçün bildirək ki, 2023-cü ildə keçirilmiş sertifikatlaşdırma imtahanında müvafiq keçid balını toplamayan ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat müəllimləri üçün Təhsil İnstitutu tərəfindən təlimlər təşkil edilib.

İyunun 10-13 tarixlərində təkrar sertifikatlaşdırma prosesi ilə bağlı apellyasiya müraciətləri olub. Müraciətlərin təhlilindən sonra yekun nəticələr elan ediləcək.

Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ) ibtidai sinif müəllimləri üçün təkrar sertifikatlaşdırma imtahanında istifadə olunmuş ixtisas suallarını ilk dəfə ictimaiyyətə təqdim edib.

Artıq regional təhsil idarələrində təkrar sertifikatlaşdırma imtahanında keçid balını toplamayan təhsilverənlərlə işin təşkili, onların sosial statuslarının mərhələli şəkildə qiymətləndirilməsi və alternativ iş yeri ilə təmin olunmalarının araşdırılması məqsədilə komissiyalar fəaliyyətə başlayıb.

Qeyd edək ki, təkrar sertifikatlaşdırma prosesinin müsahibə mərhələsi avqust ayında təşkil olunacaq və bu barədə ətraflı məlumat müəllimlərin şəxsi kabinetlərinə göndəriləcək.

Xatırladaq ki, 2022 və 2023-cü illərdə təşkil olunan sertifikatlaşdırma proseslərində 31227 ibtidai sinif, 9247 Azərbaycan dili və ədəbiyyat müəllimi iştirak edib. Sertifikatlaşdırmadan keçmiş 8410 müəllimin əməkhaqqısına 35 faiz, 23538 müəllimin əməkhaqqısına isə 10 faiz artım tətbiq olunub.

# Müəllimlər niyə sertifikatlaşdırılmalıdırlar?

**Əslində bu sual həm də düşündürücüdür. Bu gün müəllimlərimizdən yüksək səriştə, bilik və bacarıqlar tələb olunur. Artıq son illərin təhsil tendensiyalarından biri də məhz valideynlərin övladlarının məktəbə qəbulu zamanı peşəkar, müasir təlim metodları ilə işləməyi bacaran pedaqoqları seçmək istəyidir. Belə təhsilverənləri isə 3 ildir ki, ölkəmizdə keçirilən müəllimlərin sertifikatlaşdırılması prosesi ictimaiyyətə yaxından tanıdır, onların bilik və bacarıqları qiymətləndirilməklə topladıqları balların nəticələrini təqdim edir. Elə həmsöhbətimiz olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təlim-tədris Mərkəzinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim Xalidə Həmidova da müəllimlərin sertifikatlaşdırılmasının zəruriyyətindən, prosesin Azərbaycan təhsilinin inkişafındakı rolundan danışıb, həmçinin bu işin digər ölkələrdə necə aparılması təcrübəsinə də toxunub.**



### Sertifikatlaşdırma təhsilverənlərin xüsusi bilik və peşəkarlıq standartlarına cavab verməsini təmin edir

Xalidə Həmidova müəllimlərin sertifikatlaşdırılmasının onların xüsusi bilik və peşəkarlıq standartlarına cavab verməsini təmin etməklə Azərbaycan təhsilində həlledici rol oynadığını deyir. Bu proses təhsilin ümumi keyfiyyətinə töhfə verir: “Əlbəttə ki, burada əsas fokuslanmalı məsələ təkmilləşdirilmiş tədris keyfiyyətini təmin etməkdir. Standartlaşdırılmış səriştələr isə bunun əsasını qoyur. Sertifikatlaşdırma müəllimlərin minimum səriştə standartlarına cavab verməsini təmin edir ki, bu da ölkə üzrə tədrisin yüksək səviyyədə olmasına şərait yaradır. Burada paralel olaraq müəllimlərin pedaqoji bacarıqları da üzə çıxır. Müəllimlərimiz lazım gəldikdə effektiv tədris metodları və sinfin idarəedilməsi strategiyaları üzrə təlim alırlar və bu, şagirdlərin öyrənmə nəticələrinin artmasına gətirib çıxarır. Sertifikatlaşdırmada varisliyin gözlənilməsi ikinci ən böyük şərtdir ki, bu da vahid standartlarla işləmənin və kurikulum uyğunluğunun təmin edilməsidir ”.

Xalidə Həmidovanın sözlərinə görə, vahid standartlar oxuduqları təhsil ocağından asılı olmayaraq öyrənən üçün ardıcıl təhsil təcrübəsi yaratmağa kömək edir. Bu vahidlik bütün öyrənənlərin keyfiyyətli təhsilə çıxışını təmin edir. Kurikuluma uyğunluq zamanı isə müəllimlər şagirdlərin hərtərəfli və vahid təhsil almasını təmin edərək, milli kurikulumun standartlarına daha çox riayət edirlər. Sertifikatlaşdırma tələbi ölkədə təhsilverənləri peşəkar inkişafa təhrik edir. Davamlı təlimlərə qoşulma ehtiyacı, öyrənmə müəllimlərə ən son təhsil təcrübələri və innovasiyalardan xəbərdar olmağa kömək edir.

### Karyera yüksəlişinə dəstək…

Sertifikatlaşdırmanın ən önəmli faktorlarından biri də karyera yüksəlişinə dəstəkdir. Burada, eyni zamanda müəllimlərin özünə və cəmiyyətə olan hesabatlılığı müəyyən olunur. Həmsöhbətimiz bildirib ki, bu qiymətləndirmə vasitəsi, əslində müəllimin özünün performans monitorinqidir. Sertifikatlaşdırma müəllimin fəaliyyətinin daha yaxşı monitorinqinə və qiymətləndirilməsinə imkan verir.

Sertifikatlaşdırma nəticələri əsasən, cavabdeh qurumlara aydın, peşəkar standartların, müəllimlərin əlavə dəstəyə və ya təlimə ehtiyac duyduğu sahələri müəyyənləşdirməyə, bununla bağlı bir sıra məsələləri həll etməyə kömək edir. Dövlət təhsil siyasətinin əsas prioriteti sosial vəziyyətindən asılı olmayaraq bütün təhsilalanlara ixtisaslı müəllimlərə çıxışını təmin etməklə təhsildəki fərqlərin azaldılmasına kömək etməkdir.

Burada əlbəttə ki, ictimai güvənin formalaşdırılması vacib şərtdir. Çünki, sertifikatlaşdırma prosesi, eyni zamanda təhsil sisteminin etibarlılığını və nüfuzunu artırır. Bu zaman valideynlər, bütövlükdə ictimaiyyət uşaqlara daha keyfiyyətli və mükəmməl təhsil veriləcəyinə inanırlar: “Sertifikatlaşdırma qlobal rəqabət qabiliyyətinə malik təhsilverənlərin artmasına səbəb ola biləcək ən yaxşı vasitələrdən biridir. Burada beynəlxalq təcrübənin tətbiqi, sertifikatlaşdırma standartlarının inkişaf etmiş ölkələrin təcrübələrinə uyğunlaşdırılması Azərbaycan təhsil sisteminin qlobal rəqabət qabiliyyətini artıra bilər. Azərbaycanda müəllimlərin sertifikatlaşdırılması yüksək tədris standartlarını, ardıcıl və ədalətli təhsili, davamlı peşəkar inkişafı və şagird nəticələrinin yaxşılaşdırılmasını təmin edir. O, həmçinin ictimai etimadı artırır və ölkənin təhsil sistemini beynəlxalq standartlara uyğunlaşdırır, Azərbaycanda təhsilin ümumi inkişafına töhfə verir”.

Xalidə Həmidovanın fikrincə, müəllimlərin sertifikatlaşdırılması prosesinin gələcəyi yeni texnologiyalar, fərdiləşdirilmiş öyrənmə, bacarıq və səriştələrə daha geniş diqqəti özündə birləşdirən dinamik və adaptiv olacaq. Bu dəyişikliklər tədrisin keyfiyyətini yüksəltmək, davamlı peşəkar inkişafı təmin etmək, şagirdlərin və cəmiyyətin inkişaf edən ehtiyaclarını ödəmək üçün müəllimləri daha yaxşı hazırlamaq məqsədi daşıyır. Qlobal standartların inteqrasiyası, müxtəlifliyə və inklüzivliyə vurğu və məlumat analitikasından istifadə sertifikatlaşdırma prosesini təkmilləşdirərək, onu daha effektiv və aktual edəcək.

### Sertifikatlaşdırma prosesi xarici ölkələrdə necə həyata keçirilir?

Müəllimlərin sertifikatlaşdırılması ilə bağlı bir sıra ölkələrin təcrübəsini diqqətə çatdıran ADPU -nun baş müəllimi Amerika Birləşmiş Ştatlarında əsas təhsil tələblərindən birinin müəllimin təhsil və ya tədris olunacaq fənn sahəsində bakalavr dərəcəsinin olması və dövlət tərəfindən təsdiq edilmiş müəllim hazırlığı proqramını tamamlaması olduğunu söyləyir. Sertifikatlaşdırmanın vaxtaşırı yenilənməsi isə mütləqdir. Avstraliyada təhsil üzrə bakalavr dərəcəsi və ya magistraturaya qəbul üzrə tədris “Master of Teaching” proqramı üzrə göstəricilərə malik olmalıdır. Müəllimlər müvafiq dövlət və ya ərazi üzrə qeydiyyatdan keçməlidirlər. Burada müəllimlər üçün Avstraliya Peşəkar Standartlarına uyğunluq sertifikatı təqdim edilir. Davamlı peşəkar inkişaf əsas götürülür. Finlandiyada müəllimlərdən magistr dərəcəsi tələb olunur. Təhsilverənlərin praktik tədris təcrübəsini əhatə edən geniş müəllim hazırlığı proqramlarında iştirakı əsas hesab edilir. Onlardan davamlı peşəkar inkişaf istənilir və müəllimin müstəqilliyinə yüksək diqqət yetirilir. Sinqapurda müəllimlərin bakalavr dərəcəsi və Milli Təhsil İnstitutunun (NIE) müəllim hazırlığı proqramını tamamlamaları vacibdir. Orada yeni müəllimlər üçün strukturlaşdırılmış işə qəbul proqramları təklif edilir. Sinqapurda davamlı peşəkar inkişafa və təlimə diqqət yetirilir. Yaponiyada isə bakalavr dərəcəsinin və müəllim hazırlığı kurslarının tamamlanması vacibdir. Müəllimlər üçün prefekturaya xas olan sertifikat imtahanından keçmək və davamlı peşəkar inkişaf və ixtisasartırma təlimləri almaq şərtdir. Yaponiyada peşəkar inkişaf tələblərini özündə əks etdirən sertifikatlaşdırma hər 10 ildən bir yenilənir.

Xalidə Həmidovanın sözlərinə görə, müəllimlərin sertifikatlaşdırılması üzrə beynəlxalq təcrübə ilə yaxından tanışlıq onu deməyə əsas verir ki, əksər xarici ölkələrdə müəllimlərin yaxşı hazırlanması, ixtisaslaşmış və peşəkar olmaq, davamlı şəkildə öz bacarıqlarını inkişaf etdirmələrini təmin etmək öhdəliyi ön plandadır.

### Xüsusiyyətlər fərqli olsa da, məqsəd birdir

Həmsöhbətimiz sonda qeyd edib ki, xüsusiyyətlər fərqli olsa da, əsas məqsəd ciddi standartlar və davamlı peşəkar artım vasitəsilə təhsilin keyfiyyətini artırmaqdır. Təhsil ehtiyacları artdıqca müəllimləri müasir təhsilin çağırışlarına daha yaxşı hazırlamaq üçün sertifikatlaşdırma prosesinin aparılması olduqca vacibdir.

Samirə KƏRİMOVA

**Sertifikatlaşdırma müəllimin fəaliyyətinin daha yaxşı monitorinqinə və qiymətləndirilməsinə imkan verir**

**Sertifikatlaşdırma müəllimlərin minimum səriştə standartlarına cavab verməsini təmin edir ki, bu da ölkə üzrə tədrisin yüksək səviyyədə olmasına şərait yaradır**

**Sertifikatlaşdırma qlobal rəqabət qabiliyyətinə malik təhsilverənlərin artmasına səbəb ola biləcək ən yaxşı vasitələrdən biridir**

**Sertifikatlaşdırma prosesi, eyni zamanda təhsil sisteminin etibarlılığını və nüfuzunu artırır**

**Müəllimlərin sertifikatlaşdırılması yüksək tədris standartlarını, ardıcıl və ədalətli təhsili, davamlı peşəkar inkişafı və şagird nəticələrinin yaxşılaşdırılmasını təmin edir**

**Davamlı təlimlərə qoşulma ehtiyacı, öyrənmə müəllimlərə ən son təhsil təcrübələri və innovasiyalardan xəbərdar olmağa kömək edir**

**Finlandiyada müəllimlərdən magistr dərəcəsi tələb olunur. Təhsilverənlərin praktik tədris təcrübəsini əhatə edən geniş müəllim hazırlığı proqramlarında iştirakı əsas hesab edilir**

**Sinqapurda davamlı peşəkar inkişafa və təlimə diqqət yetirilir**

**Yaponiyada peşəkar inkişaf tələblərini özündə əks etdirən sertifikatlaşdırma hər 10 ildən bir yenilənir**

**Oxumuş qız təhsilli gələcəkdir. Yəqin ki, qadınları təhsilsiz olan cəmiyyətin nə iqtisadiyyatı, nə də sosial-rifah göstəriciləri yuxarı ola bilməz. Təhsilin İnkişafı Fondunun maliyyələşdirdiyi təşəbbüslərdən olan "Qızların təhsilinə dəstək" layihəsi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir və hədəfə ən tez çatacaq layihələrdən sayılır. "Qızların təhsilinə qoyulan hər dollar 80-ə qatlanaraq geri qayıdır" prinsipi ilə yanaşan Fondun bu istiqamətdə fəaliyyətinin miqyası genişləndirilib. Belə ki, qızların təhsilinə dəstək verilən 3 layihə paralel idarə olunur. Həmin layihələrdən birini Təhsilin İnkişafı Fondu STP Şirkətlər Qrupu ilə birgə həyata keçirir. Təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələr üzrə əməkdaşlığın qurulması, eləcə də tələbə qızlar üçün uzunmüddətli təqaüd proqramının təsis edilməsi və həyata keçirilməsi məqsədilə əldə edilən bu razılaşma ilə artıq 50 qız layihənin gücünü hiss etməyə başlayıb.**




# "Zərif mühəndislər"

## "Belə bir dəstək hər birimiz üçün qiymətlidir"

**Onlardan biri - Nərmin Məmmədova Kürdəmir rayonundandır. Kürdəmir şəhər Şəhid Səyavuş Paşayev adına 6 nömrəli tam orta məktəbi bitirəndən sonra Bakı Dövlət Universitetində oxuyub. Bakalavr təhsilini "Kimya müəllimliyi" ixtisası üzrə alan N.Məmmədova sonradan özünü mühəndislik sahəsində də sınamağa qərar verib və bu istiqamətdə təhsilini Bakı Ali Neft Məktəbində davam etdirməyə başlayıb: "Sadəcə kimyadan deyil, riyaziyyat və həndəsə üzrə biliyim güclüdür və bu səbəbdən mühəndislik üzrə təhsil almaq istədim. Mühəndislik bacarığımın olduğunu düşünürəm. Təhsil aldığım universitetlərin laboratoriyalarında da çox işləmişəm və bu sahədə uğur qazanacağımı bilirdim".**



Düşündüyü kimi də olub. Hər iki ali təhsil müəssisəsində orta balı 90-dan yuxarı olan N.Məmmədova "Zərif mühəndislər"dən biri olub: ""Zərif mühəndislər" qazandığım ilk təqaüd proqramıdır. Elanlarına sosial şəbəkələrdə rast gəldim. Bir az araşdırdıqdan sonra STP şirkətlər qrupu və Təhsilin İnkişafı Fondunun birgə əməkdaşlığının nəticəsi olduğunu öyrəndim. Hər iki təşkilat barədə məlumatlıyam, "bu işbirliyindən zəif iş çıxmaz", - deyə düşündüm. Bu layihəyə qoşulmağın mənə çox şey verəcəyini bilirdim. Proqramın şərtlərinə tamamilə uyğun idim və "Zərif mühəndislər" Təqaüd proqramına müraciət etdim. Bir neçə gün içərisində müsahibəyə dəvət etdilər. Müsahibə uğurlu oldu və mən bu proqrama seçilən 50 nəfərdən biri oldum".

N.Məmmədova deyir ki, o, bu proqramda öz ortalama göstəriciləri ilə yer alsa da, proqramın daha çox aztəminatlı ailələrin qızlarına yönəlməsini xüsusi dəyərləndirir: "Layihədə qızlarla tanışlıq imkanım oldu. Özünüinkişaf onlar üçün çox çətin olan, Bakıda ailələrindən uzaqda kirayədə yaşayan qızlar üçün 200 manat təqaüdün nə demək olduğunu tanış olduğum qızların özlərindən öyrəndim".

Proqram, sadəcə maddi cəhətdən deyil, həm də özünüinkişaf baxımından qızlara dəstək olacaq: "İlk təlimə qatıldıq. Sumqayıt Dövlət Universitetində olan təlimlərin özünüinkişaf baxımından çox böyük fayda olacağını nəzərə alsaq, bunun əhəmiyyətinin maddi qarşılığı yoxdur. Təlimlərə qatılmaq üçün Bakıdan Sumqayıta gedirəm və məncə, bu yolu getməyə, bu qədər vaxt sərf etməyə dəyər. Çünki qazanacaqlarım qat-qat çox olacaq".

Əvvəlcədən bunu necə müəyyənləşdirib? N.Məmmədovanın sözlərinə görə, sadə riyazi hesablama ilə məlum olur ki, layihəyə çox böyük büdcə ayrılıb: "İlk təlimlərə qatıldıq. Deməliyəm ki, işin keyfiyyətli şəkildə təşkilini görmək məni çox sevindirir".

Təqaüdün təsis edilməsində, sadəcə çox imkansız bir tələbəyə deyil, həm də çox yaxşı oxuyan tələbəyə üstünlük verilməsini də qiymətləndirir: "Layihənin təşkilat qrupunun ortalama balı yüksək olan tələbələr arasında seçim aparması, göstəriciləri eyni olan tələbələr arasında sosial cəhətdən aztəminatlı ailələrdən olan qızları seçməsi ədalətlidir: "Mən BDU-da təhsilimi 94 balla, fərqlənmə diplomu ilə bitirmişəm. Hazırda isə ortalama balım 92-dir. Rəqabət mühitində başqa tələbələrdən üstünlüyüm ola bilər. Layihənin həm də özünü inkişaf etdirmək istəyən, mənim kimi yüksək göstəricilərlə təhsil alan tələbə qızlara da dəstək verməsi ədalətlidir. Çünki hamımız tələbəyik və belə bir dəstək hər birimiz üçün qiymətlidir".

## "Adımı 50 nəfər arasında görəndə həyəcandan ağladım"

**Daha bir "Zərif mühəndis" Səkinə Babayeva Goranboy rayon Şəhid Hakim Cəfərov adına tam orta məktəbdə oxuyub. Məktəbin fəal şagirdlərindən biri kimi bir çox tədbirlərdə iştirak edib. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilən "Ən yaxşı təqdimat" müsabiqəsinin qaliblərindən olub. Azərbaycan Dillər Universitetində (ADU) Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə təşkil edilən "Mübariz İbrahimov - vətənpərvərlik nümunəsi" mövzusundakı yazı müsabiqəsinin qalibləri arasında o da yer alıb: "X sinif şagirdi olanda müsabiqə qalibi olaraq Azərbaycan Dillər Universitetində qonaq oldum. Bundan başqa, məktəb illərində yaxşı oxuduğum üçün Prezident İlham Əliyevlə də görüşdüm. Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışı zamanı dövlət başçısına lenti kəsdiyi qayçını mən təqdim etdim".**



Bu vəzifəyə rayonun ən yaxşı şagirdlərindən biri, dilli-dilavər məktəbli layiq görülüb. S.Babayeva indi də fəal tələbədir. Sumqayıt Dövlət Universitetində "Kompüter mühəndisliyi" ixtisası üzrə təhsil alır. Universitetdə mühəndis Tələbə-Gənclər Təşkilatına başçılıq edir. Fəallığı, yumşaq bacarıqları ilə müəllimlərində də sual yaradıb: "Müəllimlərim də deyir ki, niyə mühəndisliyi seçmişəm. Bu seçimi mənə dövr, zaman etdirdi desəm, yanılmaram. Dünyada pandemiya idi, texnologiya sürətlə həyatımızdakı hər şeyin önünə keçirdi, informasiya savaşı gedirdi və ölkəmizin məhz bu sahədə dəstəyə ehtiyacı vardı. Sosial mediada təmsil olunmaq, ölkəmizi ayrı-ayrı platformalarda təmsil etmək zərurəti hiss edirdim. "Mən nə edə bilərəm?" düşüncəsi ilə kompüter mühəndisliyi ixtisasını seçdim. Bu seçimimdə bir az da "Mühəndislik qız peşəsi deyil", "Qız müəllim olar" kimi fikirlər rol oynadı. Bu düşüncənin əksi olaraq, "qızlar oxuyar da, mühəndis də olar", - demək üçün mühəndis oldum".

"Code Academy"ni də uğurla bitirən S.Babayeva, deyəsən, qızlar, qız peşələri ilə bağlı yanlış təsəvvürləri kölgədə qoymağın hər yolunu sınaqdan keçirəcək.

Bu da o yollardan biridir. İndi o, "Zərif mühəndislər"dən biridir: "Bu müsabiqənin adı, xüsusilə xoşuma gəlir. Qadın zərif olar, amma mühəndislik ağır işdir. Bu müsabiqənin adında bu iki zidd sözü uğurla birləşdiriblər".

S.Babayeva ailəsindən uzaqda, şəhər mühitində özünü inkişaf etdirir, gələcəyini qazanmağa çalışır. Bu yolda ən böyük dəstəkçisi də dövlətidir: "Şəhərdə yaşayır, burada kirayədə qalıram. Heç nəyə baxmayaraq həyatımı, karyeramı burada quracağam. "Zərif mühəndislər" Təqaüd Proqramı da mənə dəstək olacaq".

S.Babayevanın ailəsinin imkanı olmadığı üçün, yaxud ailəsindən, el-obasından çox uzaqdadır deyə təhsil arxasınca getməyə cəsarət etməyən qızlara da sözü var: "Layihə barədə universitetin "Whatsapp" qrupunda xəbər tutdum. Heç tərəddüd etmədən qatıldım və adımı 50 nəfər arasında görəndə həyəcandan ağladım. Qəribəsi odur ki, mən bu layihə barədə həyəcansız danışa bilmirəm. Bu gün buradayam. Artıq ilk təlimlərə də qatılmışam və çox sevinirəm ki, özümə güvəndim, bu layihədə yer aldım. Qızlara demək istəyirəm ki, rayonda, ya da kənddə doğulub deyə, yaxud ailəsi kasıb olduğu üçün öz potensialını kəşf etməkdən çəkinməsinlər. İstəyirəm ki, qızlar öz gücünü, potesialını kəşf etsinlər, özlərinə inansınlar. Mən özümü kəşf etmək yolundayam və buna nail olana qədər inadla yolumdan dönməyəcəyəm".

**Ruhiyyə DAŞSALAHLI**

# "Qızların təhsilinə dəstək"

## *Media təmsilçiləri arasında yazı müsabiqəsi*

**Təhsilin İnkişafı Fondu, Azərbaycan Mətbuat Şurası və "Azərbaycan müəllimi" qəzetinin birgə əməkdaşlığı çərçivəsində Təhsilin İnkişafı Fondunun yaradılmasının üçüncü ildönümü ilə bağlı "Qızların təhsilinə dəstək" mövzusunda media subyektlərinin (qəzet, jurnal, informasiya agentliyi, internet informasiya resursu) təmsilçiləri arasında yazı müsabiqəsi elan edilir.**

### Müsabiqənin mövzusu

Müsabiqə iştirakçıları qızların təhsili ilə bağlı mövcud duruma, imkanlara, göstərilən dəstəyə, yeni istiqamətlərə, təkliflərə və yanaşma yollarına diqqət yetirməlidirlər.

### Müsabiqə üzrə mükafatlandırma

Müsabiqə üzrə 3 (üç) qalib müəyyənləşəcək:

I yer - Planşet Lenovo Tab M10
II yer - Planşet Lenovo Tab M9
III yer - Smartfon Motorolla G14




### Müsabiqə şərtləri

Müsabiqəyə təqdim olunmuş yazılarda üstünlük veriləcək:

Nəzərdə tutulan istiqamətləndirici mövzuların dolğun əhatə etmə səviyyəsinə;

- Analitik keyfiyyətlərə, faktların və məsələlərin düzgün təhlilinə;
- Faktlardan istifadə xüsusiyyətlərinə və yazının keyfiyyətinə;
- İfadə vasitələrinin zənginliyinə;
- Oxucu üçün informasiyalılıq dərəcəsinə;
- Qabaqcıl dünya təcrübəsi ilə məzmunlu müqayisənin aparılmasına.

Müsabiqəyə 7 iyun 2024-cü il tarixindən 5 iyul 2024-cü il tarixinədək qəzet, jurnal və informasiya agentliklərində, xəbər saytlarında yayımlanacaq analitik yazılar, müsahibələr buraxılacaq.

Müsabiqə üçün dil və janr məhdudiyyəti nəzərdə tutulmur.

Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

**Qeyd 1:** Yazılarda "Təhsilin İnkişafı Fondunun, Azərbaycan Mətbuat Şurasının və "Azərbaycan müəllimi" qəzetinin "Qızların təhsilinə dəstək" müsabiqəsinə təqdim olunur" qeydi olmalıdır.

**Qeyd 2:** Yazı materialının müəllifi kütləvi informasiya vasitəsində çalışmalıdır. Müsabiqə üçün təqdim ediləcək material müəllifin çalışdığı KİV-də yayımlanmalıdır.

### Yazıların təqdim edilməsi

Müsabiqə üçün yazı materiallarının təqdimatı 2 yolla aparılır - şəxsən və elektron qaydada.

1. Yazılar şəxsən təqdim edilərkən təqdimat zərfində yer almalıdır:

- müəllifin kütləvi informasiya vasitəsində işlədiyini təsdiqləyən sənədin surəti;
- şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- şəxsin əlaqə vasitələri - ev, iş telefonu və mobil telefonu;
- müsabiqə üçün verilmiş yazının dərc olunduğu qəzet və jurnalın 1 nüsxəsi,
- materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi (nüsxələrdə müəllifinin adı göstərilməməlidir);
- diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmaqla);

2. Yazılar elektron qaydada təqdim edilərkən aşağıdakılar nəzərə alınmalıdır. Təqdimat göndərişində yer almalıdır:

- Müsabiqə yazısı ("Word" faylında, imzasız);
- Müsabiqə yazısının dərc olunduğu qəzetin, jurnalın nüsxəsi (PDF, JPG, yaxud "Word" faylında);
- Yazı elektron media resursunda yayımlanıbsa, bunu təsdiqləyən link və sair vasitələr;
- Yazı materialının müəllifinin şəxsiyyət vəsiqəsi, iş vəsiqəsi və ya müəllifin KİV-də çalışdığını təsdiqləyən sənəd (PDF, JPG, yaxud "Word" faylında);
- Yazı müəllifinin əlaqə vasitələri (PDF, JPG, yaxud "Word" faylında).
- Müsabiqə üçün materiallar həm şəxsən, həm də elektron poçt vasitəsilə 7 iyun 2024-cü il tarixdən 5 iyul 2024-cü il tarixinədək saat 17.00-dək qəbul ediləcək.

Şəxsən qəbul həmin tarixlərdə həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Məmməd Araz 4 ünvanında (əvvəlki Teymur Əliyev 38 ünvanı) - Azərbaycan Mətbuat Şurasında həyata keçiriləcək.

Elektron qaydada təqdimat zamanı sadalanan sənədlər və müsabiqə yazısı info@presscouncil.az elektron ünvanına göndərilməlidir.

**Qeyd:** Təqdimat prosesində müsabiqə şərtlərinin hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

**Əlaqə: (+994 12) 441 35 96; (+994 50) 242 09 91; (+994 55) 789 85 03**

# İLK QIZIL MEDALÇI AVROPA ÇEMPİONU

## Adını tarixə yazdıran məktəblinin uğur hekayəsi

Məlum olduğu kimi, Bakıda ilk dəfə olaraq 20 və 17 yaşadək idmançılar arasında qreppling üzrə Avropa çempionatı keçirilib. Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Röya Abdullayeva 52 kq çəki dərəcəsində Polşa, İspaniya, Ukrayna idmançılarına qarşı dairəvi sistem üzrə mübarizədən qalib ayrılaraq qitə çempionatının qızıl medalına sahib çıxıb. Röya ölkəmizi bu yaş kateqoriyasında təmsil edən idmançılar arasında yeganə qızıl medal mükafatçısı olub. O, həmçinin 17 yaşadək qızlar arasında qreppling üzrə Avropa çempionu olan ilk Azərbaycan idmançısı kimi də adını tarixə yazdırıb.

"Azərbaycan müəllimi" olaraq biz də Röyanın uğurlarına güzgü tutmaq qərarına gəldik. Söhbətimiz əsnasında öyrəndik ki, məktəblimizin məşqçisi elə atası Xəyal Abdullayev imiş. O, Röya ilə işləməyin bir məşqçi olaraq çox rahat olduğunu bildirdi.



### "Qız uşağıdır, idmandan uzaqlaşdır onu" deyənlər az olmayıb

"Röya erkən yaşlarından ağıllı, sözəbaxan uşaq olub. İdman bacarığı ilə yanaşı, xaraktercə də fərqli davranış keyfiyyətlərinə malikdir. Mən hər zaman qızımla fəxr etmişəm və hər bir qərarında ona dəstək olmuşam. "Qız uşağıdır, idmandan uzaqlaşdır onu" deyənlər az olmayıb. Amma qızımı ruhdan salmaram və əlimdən gələn bütün dəstəyi də əsirgəməyəcəyəm. Röya psixoloji cəhətdən çox möhkəm və qorxmaz bir qızdır. Məşqlərdə oğlanlardan nəinki geri qalmır, hətta onlardan da artıq dözüm nümayiş etdirir. Onunla işləmək bir məşqçi olaraq mənə çox rahatdır. Verdiyim bütün tapşırıqları layiqincə yerinə yetirir. Röya yarışlara çıxanda mən çox rahat oluram. Bilirəm ki, nə olur-olsun təslim olmayacaq. Uduzmaq onun xarakterində yoxdur. Ən kritik məqamlarda belə ruhdan düşməyəcək, bir yol tapıb rəqibi məğlub etməyi bacaracaq".

### "Avropa çempionatında iştirak edəcəyini biləndə... "

Hazırda Röya Abdullayeva Naxçıvan şəhər H.Cavid adına 5 nömrəli tam orta məktəbin 10-cu sinfində təhsil alır. 2016-ci ildən "Turan döyüş klubu"nda məşq edir. Avropa çempionatına vəsiqə qazanmaq üçün qreppling üzrə Azərbaycan çempionatına qatılıb və I yerə layiq görülüb.

Röya deyir ki, Avropa çempionatında iştirak edəcəyini biləndə sevincinin hədd-hüdudu yox idi. Amma bunun ardınca onu daha məsuliyyətli bir yarışın gözlədiyini də bilirdi: "Avropa çempionatına iki ay qalmış hazırlaşmağa başladım və ağır hazırlıq prosesi keçdim. Hər gün məşq edirdim. Bilirdim ki, yarış çətin olacaq və 4 rəqiblə qarşılaşacağam".

Nəhayət, həlledici məqamlar yetişdi və Röya bir-birinin ardınca üç rəqibinin üzərində qələbə çalaraq, finalda da ukraynalı idmançını boğucu fəndlə məyus etdi və Avropa çempionu adını qazandı. Röya idmanda qazandığı bütün uğurlarına görə başda məşqçisi Xəyal Abdullayevə, yəni atasına və hər dəfə onu öz xeyir-duası ilə yarışlara yola salan anasına minnətdar olduğunu bildirir.

"Onların hər ikisi məni ancaq qələbəyə ruhlandırıblar. Elə bu dəstək də məni hər dəfə sonda qalib kürsüsünə yüksəldib. Gələcək yarışlarımı da bu qalibiyyətlə başa vura bilsəm, özümü dünyanın ən xoşbəxt idmançısı sayacağam", - deyir qızıl medal sahibi.

### "Həm ata, həm də məşqçi kimi qürur hissi keçirirəm"

Xəyal Abdullayev Avropa çempionatına çox yaxşı hazırlaşdıqlarını diqqətə çatdırıb: "Yeniyetmələrdən ibarət yığma komandamızın baş məşqçisi Orxan Həsənov da çox inanırdı ki, Röya çempion olacaq. Qızım bu gözləntiləri, ümidləri doğrultdu. Yeniyetmələr arasında kikboksinq üzrə də Azərbaycan çempionudur. Qürur hissi keçirirəm həm bir ata, həm də bir məşqçi kimi".

Qeyd edək ki, Röya şəxsi məşqçisi atası Xəyal Abdullayevin rəhbərliyi ilə bundan əvvəl də bir çox yarışlara qatılıb. Universal döyüş üzrə dünya çempionatının, kikboksinq, MMA və qreppling üzrə Azərbaycan çempionatlarının qalibi kimi böyük nailiyyətlərə imza atıb. 2020-ci ildə Bakı şəhərində keçirilən kikboksinq üzrə Azərbaycan çempionatında I, 2021-ci ildə Türkiyənin Antalya şəhərində keçirilən universal döyüş üzrə dünya çempionatında I, 2023-cü ildə isə MMA, pankration və qreppling üzrə Azərbaycan çempionatında iki dəfə I yerə layiq görülüb.

Əminik ki, Röya Azərbaycan bayrağını hər zaman zirvələrə qaldıracaq idmançılarımızdan olacaq.

**Sifai SƏFƏROVA**

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan nəşriyyatı" MMC, 9-cu mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 16938 **Sifariş** 1326
**Məsul növbətçi:** Ş.Cəfərov



# Etibarsız sayılır



**Qərbi Kaspi Universiteti** tərəfindən 1998-ci ildə Məmmədova Xuraman Əyyub qızına verilmiş A-014477 nömrəli diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şuşa şəhər** 11 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Salahov Tofiq Şahlar oğluna verilmiş A-676953 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 4 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Cahangirov Elşad Əlicəfər oğluna verilmiş A-164761 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Hüseynov Cavanşir Nahid oğluna verilmiş E-393567 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Xəlilova Ruqiyyə Vidadi qızına verilmiş B-687764 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Əlinəzərli kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Vəliyev Pərvin Famil oğluna verilmiş A-046901 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 5 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Əhmədova Şəms Niyaməddin qızına verilmiş E-070852 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Malbinəsi kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Fərzəliyeva (Əsgərova) Aygün Vəlyəddin qızına verilmiş 616186 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Əkbərov Əsgər Sultan oğluna verilmiş A-281653 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2003-cü ildə Məhərrəmov Nurlan Ələsgər oğluna verilmiş A-130765 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 72 nömrəli məktəb-liseyi 2019-cu ildə bitirmiş Kərimov Salman Fariz oğluna verilmiş E-193678 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Məmmədov Elşən Mübariz oğluna verilmiş A-189992 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2011-ci ildə Məmmədov Ceyhun Qalib oğluna verilmiş BB-I-018616 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Cəfərova Sərfinaz Oqtay qızına verilmiş B-206488 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir 39 nömrəli Orta Texniki Peşə Məktəbi** (indiki Ə.Quliyev adına Mingəçevir Peşə Məktəbi) tərəfindən 1986-cı ildə Əliyev Gəncəli Məmiş oğluna verilmiş 601409 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 13 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Rzayev Sabəddin Malik oğluna verilmiş 504425 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Hacıqərvənd kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Cəfərova Gülnarə Ədalət qızına verilmiş A-668140 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 4 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Həsənov Cavanşir Ceyhun oğluna verilmiş E-527135 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 307 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Məmmədova Aytac Rasif qızına verilmiş E-445028 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 76 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Əlirzayeva Əminə Şair qızına verilmiş E-138500 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Vənənd kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Əliyev Arzuman Kazım oğluna verilmiş A-395355 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Əmcadi Leyla Şahin qızına verilmiş A-491548 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli Baza Tibb Məktəbi** tərəfindən 2003-cü ildə Məmmədova Qaratel Zülfüqar qızına verilmiş AB-II-085163 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Səbail rayon 162 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Hüseynov Aqşin Kamran oğluna verilmiş A-411875 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 167 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Qürbətov Samir Aslan oğluna verilmiş A-141758 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Əlinəzərli kənd 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əlizadə Səmərqə Nazil qızına verilmiş A-142836 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Viləş kənd tam orta məktəbi tərəfindən 2015-ci ildə eksternat qaydada Hüseynova Səbinə Şakir qızına verilmiş A-487281 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 258 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Ağayeva (Nağıyeva) Kəmalə Nəriman qızına verilmiş A-495759 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2004-cü ildə Balazadə Emin Şükür oğluna verilmiş AB-I-085521 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 281 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Camalzadə Xaliqi Eldəniz oğluna verilmiş B-375669 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı Peşə Məktəbi** tərəfindən 2015-ci ildə Cəfərli Ülvi Babacəfər oğluna verilmiş A-070452 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 186 nömrəli tam orta məktəbin IX sinfini 1988-ci ildə bitirmiş Qəhrəmanov Elşad Qəhrəman oğluna verilmiş A-355657 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2013-cü ildə Əlicanov Musa Hüseynəli oğluna verilmiş A-007414 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm və Menecment Universiteti** tərəfindən 2017-ci ildə Əliquliyeva Afət Ələddin qızına verilmiş A-115307 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Milabad qəsəbə tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Babayev Arzu Səməd oğluna verilmiş B-048804 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 9 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Rzayeva İradə Səadət qızına verilmiş B-089543 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Gülməmmədli kənd tam orta məktəbi 1982-ci ildə bitirmiş Əliyeva Səadət İsrəfil qızına verilmiş 713173 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Qafarova Könül Rasim qızına verilmiş A-751296 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Qafarova Kəmalə Rasim qızına verilmiş A-751295 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 38 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Orucova Fidan Ramiz qızına verilmiş A-542089 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş İsmayılzadə Cəmalə Səadət qızına verilmiş A-238855 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Xıl kənd tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Quliyeva Ruhiyyə Mircəlal qızına verilmiş A-061145 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Xıl kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Quluzadə Nuridə Mircəlal qızına verilmiş A-006695 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Təzə Alvadı kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Həsənova Ləman Vüqar qızına verilmiş C-859087 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Topalhəsənli kənd tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Ələkbərov Rabil Xəqani oğluna verilmiş A-239327 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 235 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Bushmakina Daria Valerevnaya verilmiş E-459612 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 264 nömrəli məktəb-liseyi 2008-ci ildə bitirmiş Həsənəliyev Həsən Yadulla oğluna verilmiş B-494205 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 23 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Paşayev Orxan Eldəniz oğluna verilmiş E-476350 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 167 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Hüseynov Ramiz Etibar oğluna verilmiş A-307778 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 9 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əlizadə Murad Vasif oğluna verilmiş A-501133 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Siyəzən rayon** Gil-Gilçay stansiya ümumi orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Talıbov Orxan Eynulla oğluna verilmiş A-090784 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 65 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Rzayeva Aydən Əlisafa qızına verilmiş B-685239 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 39 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Axundov Rəşad Yaqub oğluna verilmiş 102707 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Cavad kənd 2 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Bağırova (Əhmədova) Güllər Seyidəzim qızına verilmiş A-559639 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 295 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Paşayeva Mələkxanım Cabar qızına verilmiş A-616118 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**13 nömrəli Bakı Peşə Məktəbi** tərəfindən 2018-ci ildə Paşayeva Mələkxanım Cabar qızına verilmiş A-108886 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Regional Kolleci** tərəfindən 2017-ci ildə Əkbərzadə Əkbər Zahid oğluna verilmiş AA-095387 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Baxçakürd kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Əsgərova Tərlan Arzu qızına verilmiş B-419365 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Turizm Peşə Məktəbi** tərəfindən 2022-ci ildə Kərimova Nigar Nazim qızına verilmiş A-164899 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 242 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Ağayeva Günel Eyvaz qızına verilmiş B-513820 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2002-ci ildə Abdullayev Elnur Elxan oğluna verilmiş A-116464 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 183 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əhmədova Günəş Səyyaf qızına verilmiş B-127480 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 148 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Nedostupova Elina Anatolevnaya verilmiş 514888 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2009-cu ildə Orucova Aygün İbrahim qızına verilmiş B-163048 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Könüllü kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Şıxıyev Namiq Qinyaz oğluna verilmiş 092673 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** II Şıxlı kənd tam orta məktəbi 1980-ci ildə bitirmiş Əzizova (Musayeva ) Fatma Rəşid qızına verilmiş 392522 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universieti** tərəfindən 2019-cu ildə Bəşirli Əli Vəli oğluna verilmiş C-042869 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**93 nömrəli Orta Texniki Peşə Məktəbi** tərəfindən 1987-ci ildə İmanova (Əliyeva) Elyana Həsən qızına verilmiş 426344 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**7 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2011-ci ildə İbrahimova Sevinc İsgəndər qızına verilmiş A-002089 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 9 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Heybətova İlkanə Nazim qızına verilmiş B-630148 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd 5 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Ağayeva Sevinc Ağa qızına verilmiş B-328724 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı Peşə Liseyi** tərəfindən 2023-cü ildə Həsənov Hakim Eyvazxan oğluna verilmiş A-177488 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin kollektivi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Tədris Resursları Mərkəzinin direktor müavini Əsgər Quliyevə bacısı

**CƏMİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi Qarabağ Regional Təhsil İdarəsinin əməkdaşı Elşad Ələsova atası

**QARDAŞXAN ƏLƏSOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə Şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Maliyyə-mühasibatlıq sektorunun baş məsləhətçisi İlhamə İmanovaya anası

**SUMAYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Təhsil İnstitutunun kollektivi Tədris Resursları Mərkəzinin direktor müavini Əsgər Quliyevə bacısı

**CƏMİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan müəllimi" qəzetinin kollektivi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Tədris Resursları Mərkəzinin direktor müavini Əsgər Quliyevə bacısı

**CƏMİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.